*Birləşdirilmiş (Konsolidə edilmiş) Maliyyə Hesabatlarına dair*

## *UÇOT SIYASƏTI VƏ İZAHLI QEYDLƏR*

### I. UNIVERSITET HAQQINDA ÜMUMI MƏLUMAT

***Əsas Müəssisə:*** *"Qərbi Kaspi Univeristeti"*

"Qərbi Kaspi Univeristeti" (Universitet) Azərbaycan Respublikası Nazirlər Kabinetinin 04 mart 1995-ci il tarixli 44 saylı Qərarı ilə yaradılmışdır.

Universitet Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Milli Gəlirlər Baş İdarəsi hüquqi şəxslərin dövlət qeydiyyatı İdarəsi tərəfindən qeydiyyata alınmış və ona bu barədə 1700370951 saylı Şəhadətnamə verilmişdir.

Universitetin təsis qeydiyyat sənədlərində sonuncu dəfə 04.04.2022-ci il tarixdə dəyişiklik edilərək AR İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Milli Gəlirlər Departamentinin Hüquqi Şəxslərin Dövlət qeydiyyatı İdarəsində qeydiyyatdan keçirilmiş və ona hüquqi şəxslərin Dövlət Reyesterindən 2201020024216500 saylı Çıxarış verilmişdir.

Nizamnaməsinə əsasən Universitet, ali təhsilin bütün səviyyələri üzrə geniş spekterli mütəxəssislər hazırlığını, ali, orta ixtisas və əlavə təhsil Proqramlarını həyata keçirən fundamental və tətbiqi elmi tədqiqatlar aparan çoxprofilli aparıcı özəl ali təhsil müəssisəsidir.

Universitetə əsas fəaliyyəti ilə bağlı olaraq AR İqtisadiyyat Nazirliyi tərəfindən 089722 saylı İN/L-1354/2016 qeydiyyat nömrəli, 03.06.2016-cı il tarixli Lisenziya verilmişdir.

Universitetin qanuni təmsilçisi Rəşad Bağırov, baş mühasibi Saidə Rəhimova olmuşdur.

Təsis və qeydiyyat Sənədlərində göstərildiyi kimi Universitetin əsas hüquqi ünvanı Bakı şəhəri, Səbail rayonu, İstiqlaliyyət küçəsi 27-dir.

***Törəmə müəssisə***

Universitetin törəmə Müəssisələri mövcuddur, lakin, uzun illər və o cümlədən, 2025-ci hesabat dövründə heç birinin maliyyə təsərrüfat fəaliyyəti olmamış bu səbəbdən hər hansı dövriyyə məbləğləri mövcud olmamışdır.

Həmin Törəmə müəssisələr barədə məlumat aşağıdakı cədvəldəki kimi olmuşdur:

| Sıra sayı | Törəmə Müəssisələrin adları | Vöenləri |
|---|---|---|
| 1. | Qərb Universitetinin İdman Klubu | 1700417341 |
| 2. | Akademik Servises MMC | 1701529521 |
| 3. | Lozə İdman Klubu | 1701374581 |
| 4. | İnkişaf zəmini | 1701529651 |
| 5. | Bilik Akademiyası | 1004974591 |
| 6. | Akademik Sports Menecment | 1700529571 |
| 7. | Qərb Universitetinin Kolleci | 1702074731 |
| 8. | Golden Rock | 1502327381 |

## 2. UÇOT QAYDALARI

***Əsas Uçot prinsiplərinin xülasəsi***

Maliyyə hesabatlarının hazırlanmasında qəbul edilən əsas uçot prinsipləri aşağıda qeyd edilmişdir. Bu prinsiplər istisna hallar göstərilmədiyi təqdirdə, bütün illərə davamlı olaraq tətbiq olunur.

***Mühasibat uçotunun əsasları***

Universitet mühasibat sistemini Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun şəkildə təşkil edir.

Universitetin 31.12.2025-ci il tarixində başa çatmış il üzrə hazırkı maliyyə hesabatları Beynəlxalq Mühasibat Standartları Şurası tərəfindən dərc edilmiş Maliyyə Hesabatlarının Beynəlxalq Standartları(MHBS) və Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına Şərhlər Komitəsi (MHBSK) tərəfindən dərc edilmiş şərhləri əsasında hazırlanmışdır.

Standartlara və şərhlərə 31.12.2025-ci il tarixində qüvvəyə minməsi gözlənilən MBUSK və ya Maliyyə Hesabatlarının Beynəlxalq Standartları Komitəsinin (MHBSK) təqdimat və ya mümkün dəyişikliklərini nəzərə almala, rəhbərlik yekun maliyyə hesabatlarını tərtib etməzdən əvvəl maliyyə hesabatlarına bu cür dəyişikliklərin edilməsi ehtiyacının olma ehtimalını istisna etmir.

*Təqdimatın əsasları*

Maliyyə hesbatları aşağıda göstərilmiş mühasibat uçotu prinsiplərində başqa cür qeyd olunmayıbsa(məsələn, müəyyən maliyyə alətləri adalətli dəyər prinsipi ilə ölçülür) tarixi dəyər prinsipinə əsasən hazırlanmışdır.

*Funksional və Hesabat valyutası*

Universitet funksional valyutası və bu maliyyə hesabatlarının tərtib olunduğu valyuta Azərbaycan Respublikasının milli valyutası olan Azərbaycan manatıdır (AZN).

*Maliyyə alətləri -əsas qiymətləndirmə üsulları*

Ədalətli dəyər qiymətləndirmə tarixində bazar iştirakçıları arasında könüllü şəkildə əməliyyat həyata keçirilərkən aktivi satmaq üçün alınacaq və öhdəliyi ötürərkən ödəniləcək dəyərdir.

Ədalətli dəyər ən yaxşı olaraq fəal bazarda alınıb satıla bilən qiymət ilə təsdiqlənir. Fəal bazar qiymətlər haqqında davamlı olaraq məlumat əldə etmək üçün aktiv və öhdəliklər üzrə əməliyyatların kifayət qədər tez müddətdə və həcmdə həyata keçirildiyi bazardır.

Fəal bazarda alınıb satılan maliyyə alətlərinin ədalətli dəyəri ayrı-ayrı aktiv və ya öhdəliklərin bazar qiymətinin müəssisənin istifadəsində olan aktiv və ya öhdəliklərin miqdarına hasili nəticəsində alınan məbləğ kimi ölçülür.

Bu hal hətta bazarın normal gündəlik ticarət dövriyyəsi müəssisənin istifadəsində olan aktiv və öhdəliklərin qarşılanması üçün kifayət qədər olmadıqda və bir əməliyyat üzrə mövqelərin satılması üçün sifarişlərin yerləşdirilməsi bazar qiymətinə təsir etdikdə baş verir.

Əməliyyatın qiyməti haqqında bazar məlumatı olmayan maliyyə alətlərinin ədalətli dəyərini müəyyən etmək üçün pul axınlarının diskontlaşdırılması modelindən, həmçinin bazar şərtləri ilə həyata keçirilən analoji əməliyyatlar haqqında məlumatlara və ya investisiya olunan müəssisələrin cari dəyərinə əsaslanan modellərdən istifadə edilir. Ədalətli dəyərin qiymətləndirilməsi nəticələri aşağıda göstərildiyi kimi ədalətli dəyər iyerarxiyasının səviyyələrinə görə təhlil edilir:

(i) 1-ci Səviyyəyə oxşar aktivlər və ya öhdəliklər üçün aktiv bazarlarda kotirovka olunan (düzəliş edilməyən) qiymətlər ilə qiymətləndirmələr aiddir,

(ii) 2-ci Səviyyəyə aktiv və ya öhdəlik üçün birbaşa (yəni, qiymətlər) və ya dolayısı ilə (yəni, qiymətlər əsasında hesablananlar) müşahidə edilə bilən əhəmiyyətli ilkin məlumatların istifadə edildiyi qiymətləndirmə üsulları ilə qiymətləndirmələr aiddir;

(iii) 3-cü Səviyyəyə aid olan qiymətləndirmələr yalnız müşahidə oluna bilən bazar məlumatlarına əsaslanmır (yəni, qiymətləndirmə üçün əhəmiyyətli həcmdə müşahidə oluna bilməyən ilkin məlumatlar tələb edilir). Ədalətli dəyər iyerarxiyasının səviyyələri arasında köçürmələr hesabat dövrünün sonunda baş vermiş hesab edilir.

Əməliyyat xərcləri əlavə xərcləri əks etdirir və birbaşa olaraq maliyyə alətinin alışı, buraxılması və ya satışı ilə əlaqəlidir. Əlavə xərc əməliyyat həyata keçirilmədiyi təqdirdə yaranmayan xərclərdir.

Əməliyyat xərclərinə agentlərə (satış üzrə agentlər kimi fəaliyyət göstərən işçilər daxil olmaqla), məsləhətçilərə, brokerlərə və dilerlərə ödənilmiş haqq və komissiyalar, tənzimləyici orqanlar və fond birjalarına ödəmələr, eləcə də mülkiyyət hüququnun köçürülməsi üzrə vergilər və rüsumlar daxildir. Əməliyyat xərclərinə borc öhdəlikləri üzrə mükafat və ya diskontlar, maliyyələşdirmə xərcləri, daxili inzibati və ya saxlama xərcləri daxil edilmir.

Amortizasiya olunmuş dəyər (AC) əsas məbləğ üzrə ödənişlərin çıxılmasından və hesablanmış faizlərin əlavə edilməsindən, maliyyə aktivləri üçün isə gözlənilən kredit zərərləri üzrə ehtiyatın çıxılmasından sonra maliyyə alətinin ilkin tanınma zamanı qeydə alınan dəyəridir.

***Maliyyə alətlərinin ilkin tanınması.***

Bütün maliyyə alətləri əməliyyat xərcləri də daxil olmaqla, ilkin olaraq ədalətli dəyərlə tanınır.

İlkin tanınma zamanı ədalətli dəyər ən yaxşı olaraq əməliyyat qiyməti ilə təsdiqlənir. İlkin tanınma zamanı gəlir və ya zərər yalnız ədalətli dəyər ilə əməliyyat qiyməti arasında fərq olduqda qeydə alınır.

Əməliyyat qiyməti eyni maliyyə aləti ilə aparılan digər müşahidə oluna bilən cari bazar əməliyyatları və ya əsas məlumat kimi yalnız müşahidə edilə bilən bazarların məlumatlarını istifadə edən qiymətləndirmə modeli ilə təsdiqlənir.

İlkin tanınmadan sonra amortizasiya olunmuş dəyərlə qiymətləndirilən maliyyə aktivləri üzrə gözlənilən kredit zərərləri üçün ehtiyat tanınır və bu da aktivin ilkin tanınmasından dərhal sonra zərərin tanınması ilə nəticələnir.

Qanunvericilik və ya ümumi qəbul edilmiş bazar qaydaları ilə müəyyən edilmiş vaxt çərçivəsində təchiz olunması nəzərdə tutulan maliyyə aktivlərinin bütün digər alış və satışları ("standart şərtlər" əsasında alış və satışlar), Universitetin maliyyə aktivini almaq və ya satmaq öhdəliyini qəbul etdiyi əməliyyat tarixində qeydə alınır.

Alış üzrə bütün digər əməliyyatlar Universitetin həmin maliyyə aləti üzrə müqavilə tərəfi olduğu halda tanınır.

***Maliyyə aktivlərinin təsnifləşdirilməsi və sonrakı dövrdə qiymətləndirilməsi:***

Universitet maliyyə aktivlərini amortizasiya olunmuş dəyərlə təsnifləşdirir və ölçür. Borc maliyyə aktivlərinin təsnifləşdirilməsi və sonrakı dövrdə ölçülməsi: (i) müvafiq aktivlər portfelinin idarə olunması üçün Universitetin biznes modelindən və (ii) aktiv üzrə pul axınlarının xüsusiyyətindən asılıdır.

***Maliyyə aktivlərinin yenidən təsnifləşdirilməsi.***

Maliyyə aktivlərinin idarə edilməsi üzrə biznes model tam dəyişdirildikdə, bütün maliyyə alətləri yenidən təsnifləşdirilir.

Aktivlərin yenidən təsnifləşdirilməsi perspektiv qaydada - biznes modeldəki dəyişiklikdən sonrakı ilk hesabat dövrünün əvvəlindən tətbiq edilir. Universitet cari və müqayisəli dövr ərzində öz biznes modelini dəyişdirməmiş və maliyyə aktivlərini yenidən təsnifləşdirməmişdir.

***Maliyyə aktivlərinin dəyərsizləşməsi:***

Universitet amortizasiya olunmuş dəyərlə ölçülmüş borc alətləri üzrə gözlənilən zərərləri proqnozlar əsasında qiymətləndirir.

Universitet hər bir hesabat tarixində gözlənilən zərərləri qiymətləndirir və dəyərsizləşməsi üzrə ehtiyatı tanıyır.

Amortizasiya olunmuş dəyərlə ölçülən borc alətləri gözlənilən kredit zərərləri üzrə ehtiyat çıxılmaqla, maliyyə vəziyyəti haqqında hesabatda göstərilir.

*Maliyyə aktivlərinin silinməsi.*

Maliyyə aktivlərini bərpa etmək üçün Universitetin bütün praktiki imkanları tükəndikdə ə Universitet belə aktivlərin bərpasına dair gözləntilərin əsaslandırılmadığı qənaətinə əldikdə, maliyyə aktivləri tam və ya qismən silinir.

Aktivlərin silinməsi tanınmanın dayandırılmasını əks etdirir. Universitet müqaviləyə əsasən ödənilməli məbləğləri bərpa etməyə cəhd etdikdə, lakin həmin məbləğlərin bərpası ilə ağlı əsaslandırılmış gözləntiləri olmadıqda, barəsində hələ də məcburi bərpa tədbirləri örülən maliyyə aktivlərini silə bilər.

*Maliyyə aktivlərinin tanınmasının dayandırılması.*

Universitet aşağıdakı hallarda maliyyə aktivlərinin tanınmasını dayandırır: (a) aktivlər əri alındıqda və ya bu aktivlərlə əlaqədar pul vəsaitlərinin hərəkəti üzrə hüquqların müddəti aşa çatdıqda və ya (b) Universitet maliyyə aktivlərindən daxil olan pul vəsaitlərinin axını zrə mülkiyyət hüququnu ötürdükdə və ya ötürülmə haqqında müqavilə bağladıqda və bu aman (i) həmin aktivlərin mülkiyyət hüququ ilə əlaqədar bütün risk və faydaları əsas tibarilə başqa tərəfə ötürdükdə və ya (ii) bu aktivlərin mülkiyyət hüququ ilə əlaqədar bütün sk və faydaları əsas etibarilə ötürmədikdə və ya saxlamadıqda, lakin, həmin aktivlər üzrə əzarət hüququnu özündə saxlamadıqda. Qarşı tərəf satışa məhdudiyyətlər qoymadan aktivi ım olaraq əlaqəli olmayan üçüncü tərəfə satmaq imkanına malik olmadıqda nəzarəti özündə axlayır.

*Maliyyə öhdəliklərinin qiymətləndirilmə kateqoriyaları.*

Maliyyə öhdəlikləri sonradan amortizasiya olunmuş dəyərlə ölçülür. Maliyyə öhdəliklərinin tanınmasının dayandırılması. Maliyyə öhdəliyinin tanınması öhdəlik icra edildiyi halda dayandırılır (yəni, müqavilədə göstərilən öhdəlik yerinə yetirildikdə, ləğv edildikdə və ya icra müddəti başa çatdıqda).

## 3. Mühasibat uçotunun mühüm maddələri üzrə mülahizələr

*Xarici valyutanın çevrilməsi.*

Universitetin funksional valyutası onun fəaliyyət göstərdiyi əsas iqtisadi mühitin valyutasıdır. Universitetin funksional və təqdimat valyutası Azərbaycan Respublikasının milli valyutası olan Azərbaycan Manatıdır.

Monetar aktiv və öhdəliklər ARMB-nin müvafiq hesabat tarixinə qüvvədə olan rəsmi alyuta məzənnəsinə əsasən Universitetin funksional valyutasına çevrilir.

Belə əməliyyatlar üzrə hesablaşmaların həyata keçirilməsi və monetar aktiv və ıhdəliklərin ARMB-nin ilin sonuna müəyyən etdiyi rəsmi məzənnə ilə Universitetin unksional valyutasına çevrilməsi nəticəsində yaranan gəlir və zərər il üzrə mənfəət və ya ərərdə (xarici valyuta mövqeyinin yenidən qiymətləndirilməsi üzrə zərər çıxılmaqla gəlir imi) tanınır.

İlin sonuna qüvvədə olan məzənnə ilə çevrilmə ilkin dəyərlə qiymətləndirilən qeyri-ıonetar maddələrə tətbiq edilmir.

Xarici valyutada olan və ədalətli dəyərlə qiymətləndirilən qeyri-monetar maddələr, o ümlədən pay alətləri ədalətli dəyərin müəyyən edildiyi tarixə qüvvədə olan məzənnələrdən stifadə etməklə funksional valyutaya çevrilir.

Məzənnə dəyişikliklərinin pay qiymətli kağızların ədalətli dəyərinə təsiri ədalətli əyərin dəyişməsindən yaranan gəlir və ya zərərin bir hissəsi kimi əks etdirilir.

***Əvəzləşdirmə.***

Maliyyə aktiv və öhdəliklərinin əvəzləşdirilməsi və xalis məbləğin maliyyə vəziyyəti ıaqqında hesabata daxil edilməsi tanınmış məbləğlərin əvəzləşdirilməsi üçün janunvericiliklə müəyyən edilmiş hüququn, eləcə də əvəzləşdirməni aparmaq və ya aktivi ealizəsiyə edərkən müvafiq öhdəliyi də satmaq niyyətinin mövcud olduğu hallarda həyata keçirilə bilər. Belə əvəzləşdirmə hüququ gələcək hadisələrdən asılı olmamalı və aşağıdakı bütün hallarda hüquqi qüvvəyə malik olmalıdır:

(i) adi fəaliyyət gedişində

(ii) defolt halı olduqda

(iii) ödəniş qabiliyyəti olmadıqda və ya müflisləşmə baş verdikdə.

***Universitetin Hesabat ilinin sonuna Debitor borclarının dəyərsizləşməsi və ya "Ümüdsiz borcları" üzrə vəziyyət***

Debitor borclarının dəyərsizləşməsi və ya "Ümüdsiz borcları" üzrə vəziyyət, yalnız həmin borcların müştərilər tərəfindən, artıq, yığıla bilməməsi və bundan sonra xeyli müddətin keçməsi anında rəhbərlik tərəfindən qiymətləndirilmişdir.

Hesabat ilinin sonunda həmin borcların tələbi üzrə aparılan hərəkətlər, tədbirlərin icrası, müvafiq orqanlarla yerinə yetirilməli olan işlər dəyandırıldıqdan sonra həmin borcların müvafiq qaydada və formada aktlaşdırılması və Universitetin illərlə müxtəlif mənbələr hesabına toplanılmış və ya yaradılmış müvafiq Ehtiyyatlar maddəsi üzrə toplanılmış vəsaitlər hesabına silinməsinin həyata keçirilməsi barədə göstərişlər verilmişdir.

Bu zaman Müştərinin əhəmiyyətli maliyyə çətinlikləri, müflisləşməsi və ya maliyyə itkisinə məruz qalması və sair hallar da nəzərə alınmışdır.

Lakin, belə hallar hesabat ilinin sonu üçün müvafiq qanunvericilik aktlarının tələblərinə uyğun olaraq tam başa çatdırılmamışdır. Müvafiq işlər davam etdirilir.

***Qeyri-maliyyə aktivlərinin dəyərsizləşməsi***

Universitetin bərpa edilə bilinməyən qeyri – maliyyə aktivlərinin balans dəyərinə təsir edə biləcək aparılmış əməliyyatlar və ya müvafiq şəraitsizlik Universitetin rəhbərliyi tərəfindən hesabat dövründə təhlil olunmuş və Universitetin qeyri-maliyyə aktivlərinin mümkün dəyərsizləşməsi üzrə hər hansı göstəricilərin və ya əlamətlərin olmaması müəyyən edilmişdir.

Digər qeyri-maliyyə aktivlərinin bərpa edilə bilinməyən balans dəyərinə dair göstəricilərin və ya əlamətlərin mövcudluğu da qiymətləndirilmiş, dəyərsizləşmə üzrə yoxlanılmış və hər hansı mənfi hal müəyyən olunmamışdır.

Universitetin Qeyri-maliyyə aktivlərinin hesabat dövründəki faktiki istifadə dəyəri hesablanılarkən Universitetin rəhbərliyinin həmin hesabat ilinə dair aktivlər və yaxud pul vəsaitlərini formalaşdıran hallar, prespektiv üçün gözləntilər və bu sahədə dövriyyənin daha da artacağı ilə bağlı olaraq təxminləri də nəzərə alınmışdır.

## 4. Gəlirlərin xüsusiyyətinə görə təhlili

***Gəlirlərin yaranma mənbələri***

Universitet 2025-ci hesabat dövründə müxtəlif növ təhsil proqramlarının, o cümlədən, 63 ixtisas üzrə 5000-dək tələbəyə əyani və qiyabi təhsil proqramlarına əsaslanan təhsil vermişdir. Universitetdə 7 fakültə (məktəb), 18 kafedra, 11 şöbə fəaliyyət göstərmişdir.

Hesabat dövrü ərzində Universitet ödənişli əsaslarla və dövlət sifarişi əsasında təhsilin erilməsi məqsədi ilə bağlanmış Müqavilələrə uyğun olaraq əsas fəaliyyət sahələri və digər idmətlər üzrə gəlirlər əldə etmişdir.

Bu sahə üzrə aparılmış əməliyyatlar da Universitetin mühasibat uçotunun müvafiq hesab lanlarında uçota alınmış, hesabatlarına daxil edilmiş, o cümlədən, milli standartların ələblərinə uyğun olaraq "Mənfəət vergisinin Bəyannaməsi" və onun Əlavələri olan Hesabat ormalarında əks etdirilmişdir.

Auditin əhatə etdiyi hesabat dövrlərinin sonuna bu sahələr üzrə qalıqların vəziyyəti, əlirləri aşağıdakı cədvəldə göstərildiyi kimi olmuşdur:

manatla

| Göstəricilər | 2025 |
|---|---|
| Xidmətlərin göstərilməsindən əldə olunan gəlirlər | 14.157.542,0 |
| Malların təqdim edilməsindən gəlir | 0 |
| Əsas vəsaitlərin təqdim edilməsindən gəlir | 0 |
| Daşınan və daşınmaz əmlakın icarəsindən gəlir | 15.000 |
| Digər gəlirlər | 0 |
| **YEKUNU** | **14.172.542,0** |

## 5. Pul vəsaitləri, onların ekvivalentləri və istifadəsinin məhdudlaşdırılması

***Pul vəsaitləri və onların ekvivalentləri.***

Pul vəsaitləri və onların ekvivalentləri pul vəsaitlərinin əvvəlcədən məlum olan məbləğinə asan çevrilə bilən və dəyərin cüzi dəyişməsi kimi riskə məruz qalan qoyuluşlardır. Pul vəsaitləri və onların ekvivalentlərinə ilkin ödəniş müddəti üç aydan az olan banklararası depozitlər daxildir. Verilmə tarixində istifadəsi üç aydan çox müddətə məhdudiyyət qoyulmuş vəsaitlər pul vəsaitləri və onların ekvivalentlərinə aid edilmir.

***Pul axınlarının qiymətləndirilməsi.***

Pul vəsaitləri və onların ekvivalentləri aşağıdakı səbəblərə görə amortizasiya olunmuş dəyərlə qeydə alınır. Müqavilə üzrə nağd pul axınlarını əldə etmək məqsədilə saxlanılır və həmin nağd pul axınları yalnız xidmətlərin göstərilməsindən, malların təqdim olunmasından, icarə haqqı üzrə icra edilmiş ödənişlərindən ibarətdir.

Pul vəsaitləri və onların ekvivalentləri amortizasiya olunmuş maya dəyərində əks etdirilir.

Universitetin Pul vəsaitləri və onların ekvivalentləri hesabat ilinin əvvəlinə və sonuna olan qalıqları, dövriyyələri və sair məlumatları Universitetin həm mühasibat uçotunda, həm də onun hesabatlarında Qanunvericiliklə tələb olunan formada və qaydada uçota alınmışdır.

Eyni zamanda, həmin qiymətlilərin hərəkəti və qalığı barədə vəziyyət beynəlxalq tələblərdən irəli gələn standartlara uyğun olaraq hazırlanmış uçot – hesabat formalarında da öz əksini tapmışdır. Bu sahə üzrə hesabat ilinin əvvəlinə və sonuna qalıqlar qalmışdır.

Pul vəsaitləri, onların ekvivalentləri və istifadəsinin məhdudlaşdırılması göstərilən tarixlərdə aşağıdakılardan ibarət olmuşdur:

manatla

| sıra sayı № | Göstəricilərin adı | 31.12.2025-ci il tarixə qalıq |
|---|---|---|
| 1 | Kassa | 0 |
| 2 | AIB | 14.786.721,52 |
| 3 | Access bank | 544.770,27 |
| 4 | Express bank | 503.147,79 |
| 5 | Rabitə bank | 1.810,73 |
| 6 | ƏDV depozit | 612,32 |
| | CƏMİ: | 15.837.062,62 |

## 6. İşçi qüvvəsi və əməkhaqqı barədə.

Universitetin işçilərinin orta sayı, bütövlükdə, Auditin əhatə etdiyi 2025-ci hesabat ili ərzində ötən illə müqayisədə hərəkətli olmuşdur. Müxtəlif səbəblərdən işdən azad olunmalar və işə qəbul edilmələr aparılmışdır.

Qeyd etmək lazımdır ki, AR Əmək Məcəlləsinin və digər Normativ – Hüquqi Aktların tələblərinə uyğun olaraq İşçilərlə Əmək münasibətlərini tənzimləyən Müqavilələr və eyni zamanda, maddi – məsul şəxslərlə maddi – məsuliyyət məsələlərini əhatə edən Müqavilələr bağlanılmış, əmək haqqı, ezamiyyə xərcləri, məzuniyyət pulu və son haqq-hesab hesablamaları düzgün icra edilmiş, müvafiq olaraq sosial sığorta haqları və digər hesablamalar üzrə fondlara ayırmalar aparılmış, Auditin əhatə etdiyi dövrə dair bütün ödəmələr bank vasitəsi ilə ödənilmişdir.

Universitetin əməkdaşları 2025-ci hesabat ili ərzində aşağıda göstərilən və işçi heyəti xərclərinə daxil edilən əmək haqlarını almışdırlar:

manatla

| Sıra sayı | Əməliyyat istiqaməti | Əməliyyat məbləği |
|---|---|---|
| 1. | İşçilərə ödənilmiş əmək haqqı məbləği və ona bərabər tutulan ödənişlər (manatla) | 2.697.498,73 |
| [illegible] | [illegible] | [illegible] |
| 1.1. | əcnəbi işçilər üzrə | 0 |
| 1.2. | Yerli işçilər üzrə | 2.697.498,73 |
| 2. | İşçilərə görə ödənilmiş Sığorta haqqı məbləğləri(manatla) | 529.865,55 |
| 3. | İşçilərə ödənilmiş ezamiyyə xərcləri (manatla) | 180.794,11 |

Yuxarıdakı cədvəldə qeyd edilən sahələrlə ilə bağlı olaraq aparılmış əməliyyatlara mühasibat uçotunun hesablar planı tətbiq edilərək düzgün uçota alınmış və illik Hesabat sənədlərinin müvafiq maddələrində düzgün əks etdirilmişdir.

## 7. İcarə əməliyyatları barədə

İcarə elementi olan müqavilə qüvvəyə mindikdə və ya modifikasiyaya uğradıqda Universitet müqavilə üzrə ödənişi hər icarə elementinə onların ayrıca götürülmüş qiymətinə uyğun aid edir.

Buna baxmayaraq, Universitet əmlak icarələrində qeyri-icarə elementlərini ayırmamaq və icarə və qeyri-icarə elementləri üzrə vahid icarə elementi kimi hesabat vermək seçimindən yararlanmışdır.

Universitet istifadə hüququ formasında olan aktiv və icarə öhdəliyini icarənin başladığı tarixdə tanıyır. İstifadə hüququ formasında olan aktiv ilk olaraq ilkin dəyərində tanınır.

Bu dəyər icarə güzəştləri çıxılmaqla, icarənin başlandığı tarixdə və ya bu tarixdən əvvəl edilmiş hər hansı icarə ödənişlərindən, çəkilmiş ilkin birbaşa xərclərdən və aktivin sökülməsi və kənar edilməsi, aktivin və ya onun yerləşdiyi yerin bərpa edilməsi xərclərindən ibarətdir.

İstifadə hüququ formasında olan aktiv sonradan düzxətli metod ilə icarə müddətinin başladığı tarixdən bitdiyi tarixədək amortizasiya olunur.

O şərtlə ki, icarə müqaviləsi icarə müddətinin sonunda aktiv üzərində mülkiyyət hüququnu Universitetə ötürməsin və ya istifadə hüququ formasında olan aktivin qiyməti Universitetin satınalma həyata keçirməsini nəzərdə tutmasın.

Belə olan halda istifadə hüququ formasında olan aktiv icarəyə verilən aktivin faydalı istismar müddəti boyu amortizasiya olunacaq.

Aktivin faydalı istismar müddəti əmlak və avadanlığın faydalı istismar müddətinin müəyyən olunması prinsipi ilə müəyyən olunur.

Əlavə olaraq istifadə hüququ formasında olan aktiv dövri olaraq dəyərsizləşmə zərərinə uyğun (əgər varsa) azaldılır və icarə öhdəliyinin müəyyən təkrar qiymətləndirmələrinə uyğun düzəliş edilir.

İcarə müddətinin başlanması tarixində icarə öhdəliyi həmin tarixdə ödənilməmiş icarə ödənişlərinin diskontlaşdırılmış dəyərilə ölçülür.

Universitet İcarə öhdəliyinin qiymətləndirilməsində nəzərə alınan icarə ödənişləri aşağıdakılardan ibarətdir:

alınacaq hər hansı icarə stimulları çıxılmaqla sabit ödənişlər;

ilkin olaraq icarə müddətinin başlanğıc tarixindəki indeks və ya dərəcələrdən istifadə etməklə ölçülən, indeks və ya dərəcələrdən asılı olan dəyişkən icarə ödənişləri;

zəmanətli son qalıq dəyəri üzrə icarəçi tərəfindən ödənilməsi gözlənilən məbləğlər;

Universitetin müvafiq olaraq icra edəcəyi ehtimal edilən satınalma variantı çərçivəsində icra qiyməti.

Universitetin müqavilə müddətini uzatmaq seçimi edəcəyi ehtimal edilirsə yenilənən dövrdə icarə ödənişləri və Universitetin müqaviləyə erkən xitam verəcəyi gözlənilmədiyi hallar istisna olmaqla, icarəyə erkən xitam verilməsinə görə cərimə ödənişləri.

Hesabat ilinin sonuna sahə üzrə vəziyyət aşağıdakı kimi olmuşdur:

manatla

| Göstəricilər | 2025 |
|---|---|
| Fiziki şəxslər üzrə icarə haqqı | 1.686.034,05 |
| Hüquqi şəxslər üzrə icarə haqqı | 0 |
| **YEKUNU** | **1.686.034,05** |

## 8. Ticarət və digər debitor borcları

Auditin əhatə etdiyi dövr ərzində Universitet üzrə müxtəlif təyinatlı alqı – satqı və ya ticarət əməliyyatları aparılmışdır.

Universitetin əsas fəaliyyət istiqaməti üzrə aparılmış əməliyyatlar nəticəsində yaranmış borc dövriyyəsi, müəyyən bir müddət ərzində mülkiyyət / mülkiyyət hüquqlarının artmasına və ya əmlakın formalaşması mənbəyinin azalmasına səbəb olan bütün ticarət əməliyyatlarının, sözügedən hesaba yazılan ümumi pul dəyəridir.

Aparılmış əməliyyatlara dair hərəkətlər və ilin sonuna yaranmış qalıqlar, o cümlədən debitor borclar Universitetin uçot – hesabat sənədlərində öz əksini tapmışdır.

Hesabat ilinin sonuna Universitetin müştərilərdən ala bilmədiyi debitor borclarının vəziyyəti aşağıdakılardan ibarət olmuşdur:

manatla

| Göstəricilər | 01.01.2025 | mədaxil | məxaric | 31.12.2025 |
|---|---|---|---|---|
| Sifarişçilərə qısa müddətli debitor borclar | 0 | 14.157.542,0 | 14.098.598,39 | 58.943,61 |
| Xarici borclar | 0 | 0 | 0 | 0 |
| **YEKUNU** | **0** | **14.157.542,0** | **14.098.598,39** | **58.943,61** |

## 9. Vergilər üzrə debitor borcları və ya artıq ödəmələr

Universitet üzrə hesabat ilində və keçmiş illərdə aparılmış əməliyyatlara görə Vergi orqanlarına artıq ödəmələr yaranmış və Vergi Məcəlləsinin müvafiq maddələrinin tələblərinə uyğun olaraq həmin artıq ödəmələr yeni yaranmış öhdəliklərin bağlanılmasına yönəldilmiş və hesabat ilinin sonuna artıq ödəmə üzrə müvafiq olaraq qalıqlar qalmamışdır.

Əlavə olaraq məlum edirik ki, Universitetin vergilər üzrə artıq ödəmələri və ya Dövlət büdcəsindən alınmalı olan debitor borcları vergi orqanları əməkdaşlarının şifahi və ya rəsmi tələblərinə əsasən vergilər üzrə ödənilmiş avanslar hesabına yaranmışdır.

Bu sahə üzrə hesabat dövründə yaranmış dövriyyələr və qalıqlar Universitetin vergi uçotu üzrə şəxsi hesabında əks etdirilmiş və həmin vəziyyət mühasibat uçotunun müvafiq hesab planları üzrə uçota alınmış və hesabat sənədlərinin müvafiq maddələrində də qeyd edilmişdir.

## 10. Mal-material ehtiyatları

Hesabat dövründə alınmış mal material ehtiyatları elə hesabat dövründə də istifadə edilmişdir. Bu səbəbdən də ilin sonuna bu sahə ilə bağlı qalıq məbləğləri mövcud olmamışdır.

Universitetin mal-material ehtiyatlarının hesabat ilinin əvvəlinə və sonuna olan qalıqları, dövriyyələri və sair məlumatları Universitetin həm mühasibat uçotunda, həm də onun hesabatlarında Qanunvericiliklə tələb olunan formada və qaydada uçota alınmışdır.

Eyni zamanda, həmin qiymətlilərin hərəkəti və qalığı barədə vəziyyət beynəlxalq tələblərdən irəli gələn standartlara uyğun olaraq hazırlanmış uçot – hesabat formalarında da öz əksini tapmışdır. Hesabat ilinin sonuna bu sahə üzrə vəziyyət aşağıdakılardan ibarət olmuşdur.

manatla

| Göstəricilər | 01.01.2025 | mədaxil | məxaric | 31.12.2025 |
|---|---|---|---|---|
| hazır məhsul | 0 | 0 | 0 | 0 |
| mallar | 0 | 0 | 0 | 0 |
| sair ehtiyatlar | 737,95 | 110.265,33 | 108.155,08 | 2.848,20 |
| **YEKUNU** | **737,95** | **110.265,33** | **108.155,08** | **2.848,20** |

## 11. Kreditor borcları

Universitet üzrə hesabat ilində aparılmış əməliyyatlara görə müqavilə üzrə tərəfdaşlara və dövlət büdcəsinə borcları yaranmışdır.

Bu sahə üzrə yaranmış dövriyyələr və qalıqlar müvafiq olaraq uçota alınmış, müvafiq olaraq yaranmış öhdəliklər elə hesabat dövründə də bağlanılmış və 2025-ci hesabat ilinin sonuna qalıq qalmamışdır.

Əlavə olaraq məlum edirik ki, bu sahə Universitetin əsas fəaliyyət növü ilə əlaqədardır, münasibətlər daim yenilənir, yeni dövriyyələr və qalıqlar yaranmaqda davam edir.

## 12. Əsas vəsaitlər

Auditin əhatə etdiyi 2025-ci hesabat dövründə Universitetin balansında olan əsas vəsaitləri üzrə aparılmış əməliyyatlar, hesabat ilinin əvvəlinə və sonuna olan qalıqlar Universitetin uçot –hesabat sistemində tələb olunan formada və qaydada uçota alınmışdır və ilin sonuna bu sahə üzrə mövcud vəziyyət aşağıdakı kimi olmuşdur:

manatla

| Məzmun | Bina | Avadanlıq | Nəqliyyat vasitələri | Digər | Hesablama texnikası | Cəmi |
|---|---|---|---|---|---|---|
| 01.01.2025-ci il tarixinə ilkin dəyər | **3.207.093,35** | **284.553,14** | **24.892,12** | **193.772,78** | **167.827,30** | **3.878.138,69** |
| 2025-ci il ərzində Daxilolmalar | 602.449,76 | 0 | 0 | 28.956,84 | 136.468,16 | 767.874,76 |
| 2025-ci il ərzində Xaricolmalar | 266.668,02 | 56.910,63 | 6.223,03 | 47.576,42 | 76.073,87 | 453.451,97 |
| 31.12.2025-ci il tarixinə balans dəyəri | **3.542.875,09** | **227.642,51** | **18.669,09** | **175.153,20** | **228.221,59** | **4.192.561,48** |

## 13.Qeyri maddi aktivlər

Auditin əhatə etdiyi 2025-ci hesabat dövründə Universitetin balansında olan qeyri maddi aktivlər üzrə aparılmış əməliyyatlar, hesabat ilinin əvvəlinə və sonuna olan qalıqlar Universitetin uçot –hesabat sistemində tələb olunan formada və qaydada uçota alınmışdır və ilin sonuna bu sahə üzrə mövcud vəziyyət aşağıdakı kimi olmuşdur:

manatla

| Göstəricilər | 2025 |
|---|---|
| **01 yanvar 2025-ci il tarixinə İstifadə müddəti məlum olmayan qeyri maddi aktiv balans dəyəri** | **401.386,39** |
| 2025-ci il ərzində Daxilolmalar | 18.875,53 |
| 2025-ci il ərzində Xaricolmalar | 42.026,19 |
| **31 dekabr 2025-ci il tarixinə İstifadə müddəti məlum olmayan qeyri maddi aktiv balans dəyəri** | **378.235,73** |

## 14. Xərclərin xüsusiyyətinə görə təhlili və xərc istiqamətləri

Universitetin əsas fəaliyyəti ilə əlaqədar olaraq gəlirlərinin əldə edilməsi ilə bağlı olan xərcləri qanunvericiliklə tələb olunan formada və qaydada Universitetin mühasibat uçotunun müvafiq hesab planları üzrə uçota alınmış və eyni zamanda, Beynəlxalq və milli standartların tələbindən irəli gələn hazırlanmış hesabat formalarında düzgün əks etdirilmişdir.

Xərclərin tərkibinə Vergi Məcəlləsinin tələblərinə uyğun olaraq vergitutma obyekti olduğuna görə vergi orqanlarının əməkdaşları tərəfindən də nəzarət olunmuşdur.

31 dekabr 2025-ci il tarixində başa çatan hesabat illərinin sonu üzrə yerinə yetirilmiş işlərin, göstərilmiş xidmətlərin və sair xərclərin xüsusiyyətinə və xərclənildiyi istiqamətlərinə görə aşağıdakı cədvəldə göstərilən kimi olmuşdur:

manatla

| İstiqamət Göstəriciləri | 2025 |
|---|---|
| Əmək haqqı | 2.697.498,73 |
| Sosial sığorta ayırmaları | 529.805,55 |
| ezamiyyə | 180.794,11 |
| Enerji xərcləri | 37.607,02 |
| Qaz xərcləri | 28.399,98 |
| Yanacaq xərcləri | 28.545,90 |
| su xərcləri | 15.712,43 |
| Rabitə xərcləri | 48.416,97 |
| Reklam xərcləri | 7.480,97 |
| Təmir xərcləri | 27.276,78 |
| İcarə haqqı | 1.686.034,05 |
| Bank xidməti üzrə xərclər | 46.470,18 |
| sair xərcləri | 3.336.855,08 |
| Amortizasiya | 295.478,16 |
| Sığorta | 10.923,20 |
| Digər xərclər | 43.985,59 |
| **YEKUNU** | **9.221.284,70** |

## 15. Kapital və Ehtiyyat

Nizamnamə kapitalı — dövlət qeydiyyatından keçmiş təşkilatın təsis sənədlərində müəyyən edilmiş məbləğdir.

Nizamnamə kapitalı hüquqi şəxsin kreditorlarının maraqlarını təmin edən əmlakının minimum məbləğini müəyyən edir.

Adi səhmlər və ixtiyarı dividentli geri ödənilməyən imtiyazlı səhmlər hər ikisi xüsusi kapital kimi təsnifləşdirilir.

Bilavasitə yeni səhmlərin buraxılışına aid olan xərclər xüsusi kapitalda çıxarış kimi göstərilmişdir.

Universitetin Təsisçilərində hesabat dövründə dəyişiklik olmamış və Təsisçiləri isə Bağırova Liana Vadim qızı(50 % pay sahibi) və Nuriyeva Düriya Seyid qızı (50 % pay sahibi) olmuşdur.

Lakin, 2025-ci hesabat dövründə Universitetin Nizamnamə kapitalının həcmində dəyişiklik edilmiş və təsdiq olunmuş Nizamnaməsinə əsasən 100,00 manat həcmində olmuşdur.

*Ehtiyatlar*

"Ehtiyat Kapitalı" Universitetin təsisçilərinin yığıncağının qərarı ilə Universitetin Nizamnaməsinə daxil edilə bilər. Qərarda "Ehtiyat Kapitalının(Fondunun)" həcmi, ora olan illik köçürmələr və ondan istifadə qaydaları qeyd edilir.

Auditin əhatə etdiyi dövr ərzində aparılmış müvafiq əməliyyatlar nəticəsində müxtəlif səbəblərdən, o cümlədən, müvafiq hüquqi və ya əsas fəaliyyətlə bağlı olan məsələlərdən yaranmış öhdəliklərin yerinə yetirilməsi, icra edilməsi və ya bağlanılması üçün Universitetin hesabat ilinin maliyyə nəticələrinə (mənfəətdən ayırmalar) və müxtəlif mənbələr hesabına yaranmış pul vəsaitlərinə (yenidənqiymətləndirmə və s.) əsasən ehtiyatlar yaradılmışdır və həmin ehtiyyatlar üzrə hərəkətlər və qalıq məbləğləri mühasibat uçotunun müvafiq hesab planları üzrə uçota alınmışdır.

## 16. Mənfəət və ya zərər

Hesablar planının 80-ci bölməsində mənfəət və zərər haqqında hesabatda təqdim edilməli olan ümumi mənfəət (zərərlər) barədə məlumatların ümumiləşdirilməsi nəzərdə tutulur.

Ümumi mənfəət hesablar planının 6-cı hissəsində qeyd olunmuş gəlirlərin ümumiləşdirilmiş məbləğindən hesablar planının 7-ci hissəsindən hesablanmış xərclər çıxılmaqla müəyyən edilir. Hesabat dövrünün sonunda 801 "Ümumi mənfəət (zərər)" hesabı qalıqsız 341 "Hesabat dövründə xalis mənfəət (zərər)" hesabı ilə bağlanır.

Universitet 2025-ci ilin yekunlarına mənfəətlə başa vurmuş, mənfəət üzrə azadolmalar və güzəştlər, keçmiş illərin zərərləri çıxılmış, geridə qalan məbləğ vergiyə cəlb edilmişdir. Auditin əhatə etdiyi hesabat ili üzrə bu sahədəki vəziyyət aşağıdakı kimi olmuşdur:

manatla

| Göstəricilər | 2025 |
|---|---|
| Mənfəət və ya Zərər | 4.951.257,30 |
| Mənfəət üzrə azadolmalar və güzəştlər | 4.938.681,78 |
| Keçmiş illərin zərəri | 0 |
| Vergiyə cəlb olunan mənfəət | 12.575,52 |
| Xalis mənfəət | 4.948.742,2 |

## 17.Mənfəət vergisi

Mənfəət vergisi hazırkı maliyyə hesabatlarında Azərbaycan Respublikasının qüvvədə olan və hesabat tarixinə qüvvəyə minmiş Qanunvericilik aktlarının tələblərinə uyğun olaraq hesablanılmışdır. Mənfəət vergisi xərci cari və təxirə salınmış mənfəət vergisindən ibarətdir.

Cəmiyyət 2025-ci hesabat ilini mənfəətlə başa vurmuşdur.

Vergiyə cəlb edilən mənfəət məbləğindən Azərbaycan Respublikasının Vergi Məcəlləsinə əsasən Universitetdən tutulan mənfəət vergisi dərəcəsi 20% təşkil etmişdir.

Vergiyə cəlb edilən mənfəət və ya zərər maliyyə hesabatlarının müvafiq vergi bəyannamələrinin təqdim olunmasından əvvəl təsdiqləndiyi halda, təxmini göstəricilərə əsasən hesablanmışdır.

Mənfəət vergisindən başqa digər vergilər inzibati və digər əməliyyat xərcləri kimi qeydə alınmışdır.

Universitet 2025-ci hesabat ilində ali təhsil müəssisəsi kimi ƏDV və mənfəət vergisindən azad olmuşdur. Lakin, digər xidmətlərə görə Universitetin əldə etdiyi mənfəət vergiyə cəlb edilmiş və dövlət büdcəsinə ödəniş icra edilmişdir. Bu sahə üzrə Dövlət büdcəsinə kreditor borc məbləği qalmamışdır.

## 18. Mülkiyyətçilər arasında kapitalın bölüşdürülməsi (dividendlər)

**Dividentlər** – müəssisənin xalis mənfəətinin səhmdarlar arasında onların müvafiq iştirak paylarına uyğun olaraq bölüşdürülmüş məbləğləridir.

Elan edilmiş dividendlər 1 N-li Milli Mühasibat Uçotu Standartına uyğun olaraq Mənfəət və zərər haqqında hesabatında göstərilməmiş, lakin Kapitalda dəyişikliklər haqqında hesabatda qeyd edilmişdir.

Dividendlər elan olunub təsdiqləndiyi dövrdə kapitalda qeydə alınır. Hesabat dövründən sonra, lakin maliyyə hesabatlarının təsdiqlənməsindən əvvəl elan edilmiş dividendlər haqqında məlumat "hesabat tarixindən sonrakı hadisələr" qeydində açıqlanır.

Mənfəətdən dividendlər və digər ödənişlər Universitetin yerli qanunvericiliyə uyğun hazırlanmış maliyyə hesabatlarına əsasən həyata keçirilir.

50

Azərbaycan qanunvericiliyində cari ilin xalis mənfəəti bölüşdürmənin əsası kimi müəyyən edilir.

Universitetin mənfəətinin yaranmasına baxmayaraq, xalis mənfəətdən dividentlər ödənilməmiş və il ərzində olan xərclər məktəbin müəllim və şagird heyətinin inkişafına, konfranslarda , təlim və digər tədbirlərdə iştirakına yönəlmişdir.

## 19.Maliyyə risklərinin idarə edilməsi

***Maliyyə riski amilləri***

Rəhbərlik Universitetin risklərin idarə edilməsi sisteminin təşkilinə və ona nəzarətə görə ümumi məsuliyyət daşıyır. Universitetin risklərin idarə edilməsi siyasəti risklərin müəyyən olunması, analiz olunması, müvafiq limitlərin və nəzarət mexanizmlərinin qurulması üçün yaradılmışdır.

Risklərin idarə edilməsi siyasəti və sistemləri bazar şəraitindəki və Universitetin fəaliyyətindəki dəyişikliyi əks etdirmək üçün müntəzəm olaraq nəzərdən keçirilir.

Universitet təlimlər, idarəetmə standartları və prosedurları vasitəsi ilə intizamlı və konstruktiv nəzarət mühiti yaradır ki, bu da bütün işçilərin öz vəzifə və öhdəliklərini başa düşməsinə şərait yaradır.

## 20. Potensial öhdəliklər, təəhhüdlər və əməliyyat riskləri

***Əməliyyat mühiti***

Universitetin 2025-ci hesabat dövründəki maliyyə təsərrüfat fəaliyyətinin nəticələri, əlbəttə ki, Azərbaycandakı və onun hüdudlarından kənarda fəaliyyət göstərən, AR-dakı fiziki və hüquqi şəxslərlə əməliyyat aparan ölkələrdəki iqtisadi vəziyyətlə bu və ya digər formada bağlı olmuşdur.

Son hesabat ilində Universitetin əsas fəaliyyəti yaxşılaşmışdır. Müəyyən risklər yaranmış. öhdəliklər lazımınca yerinə yetirilə bilməmişdir. Universitetin rəhbərliyi mövcud iqtisadi mühitdə baş verən prosesləri müşahidə edir və Universitetin yaxın gələcəkdə fəaliyyətinin dayanıqlılığını və inkişafını təmin etmək üçün qabaqlayıcı tədbirlər görür.

***Sığorta***

Sığortanın iqtisadi mahiyyəti, onun ictimai məqsədlərində ifadə olunan funksiyalarında daha da açılır. Funksiyalar sığortanın maliyyə sisteminin bir həlqəsi kimi xüsusiyyətlərini aydınlaşdırmağa imkan verən təzahür əlamətləridir.

Maliyyə anlayışı öz iqtisadi mahiyyətini hər şeydən əvvəl bölgü funksiyası vasitəsilə ifadə edir. Bu funksiya özünü sığortanın funksiyalarında göstərir. Sığortanın əsas etibarilə dörd əsas funksiyası var. Bunlar aşağıdakılardan ibarətdir:Risk funksiyası, Xəbərdarlıq funksiyası, Yığım(əmanət funksiyası), nəzarət funksiyası. Əsas fuksiya kimi risk funksiyası çıxış edir. Belə ki, zərər həmişə meydana çıxa bilər və hətta hər il təkrar oluna bilər.

Universitetin öz əsas vəsaitlərinin biznes fəaliyyətinin dayandırılması və ya Filiala məxsus olan ərazilərdə ətraf mühitə zərərin vurulması ilə əlaqədar olaraq yaranan üçüncü tərəfin məsuliyyətinə dair tam sığorta təminatı təşkil edilmişdir.

Universitet adekvat sığorta təminatını əldə etməyənə qədər müəyyən aktivlərin itirilməsinin və ya məhv olmasının Universitet fəaliyyətinə və maliyyə vəziyyətinin nəticələrinə mənfi təsir etməsi riski mövcuddur.

### *21. Baş vermiş dəyişikliklər və Məhkəmə çəkişmələri barədə*

Auditin əhatə etdiyi 2025-ci hesabat ili ərzində auditin yekunlarına dair tərtib olunmuş Auditor Rəyinin(Müstəqil Auditor Hesabatının) düzgün formalaşdırılması məsələlərinə təsir edə biləcək hər hansı dəyişikliklər baş verməmişdir.

*Odur ki, Auditin əhatə etdiyi dövr üçün* ***(01.01.2025 – 31.12.2025)*** *"Qərbi Kaspi Universiteti" üzrə tətbiq olunmuş, seçilmiş və ya aparılmış uçot siyasəti, eyni zamanda, tərtib olunmuş Maliyyə Hesabatlarına dair Uçot Siyasəti və İzahlı Qeydlər sənədi bizim tərəfimizdən faktiki maliyyə və uçot işinin vəziyyətinə dair tərtib olundu və onun doğru olmasını öz imzalarımızla təsdiq edirik:*

**Rəhbər :** **R.Bağırov.**

**Baş mühasib:** **S.Rəhimova.**

**08.04.2026-cı il**